DOI: https://doi.org/10.36719/2663-4619/91/97-104

Sənan İbrahimov
Azərbaycan Dövlət Su ehtiyatları Agentliyi
qilincarslan1980@gmail.com

"ÜMİD QAPISI"-NIN İQTİSADİ-SOSİAL, TARİXİ-DİPLOMATİK VƏ HƏRBİ-SİYASİ ƏHƏMİYYƏTİ

Xülasə

Ümid körpüsü 1992-ci il mayın 28-də istifadəyə verilmiş Azərbaycan-Türkiyə sərhədində Araz çayı üzərindən keçən 286 metr uzunluğunda tağlı körpüdür və Zəngəzur dəhlizinin qarşısındakı "yaşıl işıq"dır. Körpü Türkiyənin Diluk və Azərbaycanın Sədərək sərhəd-keçid məntəqələrini birləşdirir. Onun tikintisi 1991-1992-ci illərdə aparılıb və 1992-ci il mayın 28-də istifadəyə verilib. Ulu Öndər Heydər Əliyevin Naxçıvana qayıdışından sonra siyasi müstəviyə gətirilən Qars və Moskva müqavilələrinə yenidən baxıldı. "Bir xalq, iki dövlət" şüarı ulu öndərin əzəmətli vətənpərvər olduğu bu qədim vətəndə reallığa çevrildi. Türkiyə ilə Naxçıvan arasında müvəqqəti körpü 1991-ci il oktyabrın 29-da açılsa da, əsas körpünün tikintisi sürətləndirilib. Bu məsələ Heydər Əliyevin 1992-ci il martın 22-dən 24-dək Türkiyəyə səfəri zamanı Ankarada imzalanmış əməkdaşlıq haqqında protokolda öz əksini tapmışdır.

1992-ci il mayın 28-də iki ölkə arasında iqtisadi, mədəni, sosial və siyasi əlaqələrin inkişafının simvolu sayılan Sədərək-Dilucu körpüsü istifadəyə verilmişdir. Naxçıvanda bu körpünün istifadəyə verilməsi ilə blokadanın ağır nəticələri tədricən aradan qaldırıldı, əhalinin maddi rifahı yaxşılaşdı, dünyaya muxtar respublika təqdim olundu, onun Qərbə inteqrasiyası başlandı.

Açar sözlər: *Heydər Əliyev, Süleyman Dəmirəl, Dilucu, Sədərək, İqdir, Ümid qapısı, blokada*

Sanan Ibrahimov
Azerbaijan State Water Resources Agency
qilincarslan1980@gmail.com

Economic-social, historical-diplomatic and military and political significance in "Hope Gate"

Abstract

The Umid Bridge is a 286-meter-long arched bridge over the Araz River on the Azerbaijan-Turkey border, which was commissioned on May 28, 1992, and is the "green light" in front of the Zangezur Corridor. The bridge connects Turkey's Diluk and Azerbaijan's Saderak border crossing points. Its construction was carried out in 1991-1992 and it was commissioned on May 28, 1992. After the return of Great Leader Heydar Aliyev to Nakhchivan, the agreements of Kars and Moscow, which were brought to the political level, were revised, the slogan "One nation, two states" became a reality in this ancient homeland where the great leader was a great patriot. Although the temporary bridge between Turkey and Nakhchivan was opened on October 29, 1991, the construction of the main bridge was accelerated. This issue was reflected in the cooperation protocol signed in Ankara during Heydar Aliyev's visit to Turkey from March 22 to 24, 1992.

On May 28, 1992, the Saderak-Dylucu bridge, which is considered a symbol of the development of economic, cultural, social and political relations between the two countries, was commissioned. With the commissioning of this bridge in Nakhchivan, the severe consequences of the blockade were gradually removed, the financial well-being of the population improved, an autonomous republic was presented to the world, and its integration into the West began.

Keywords: *Heydar Aliyev, Suleyman Demirel, Dilucu, Sadarak, Igdir, Gate of Hope, blockade*

Giriş

XX əsrin 80-90-cı illəri dünyanın iki ən böyük hərbi, iqtisadi, siyasi gücündən birinin – çoxmillətli SSRİ-nin (Sovet Sosialist Respublikaları İttifaqı) inqilabi çökməsi ilə tarixə düşdü. Təbii ki, bu çöküşdə adıgedən məkanda yaşayan bütün xalqlar əziyyət çəkdilər, çünki inqilablar ağrısız-acısız və qansız-qadasız ötüşmür. O da sirr deyil ki, SSRİ-nin dağılmasının planı, alternativ (düşmən) düşərgənin xüsusi institutlarında hazırlanmışdı və koordinasiyalı bir şəkildə idarə olunurdu. Bu planda millətlərarası ədavətin qızışdırılması və milli zəmində müharibə və qırğınların həyata keçirilməsi prioritet sahələrdən biri idi. Digər tərəfdən, çökən imperiyanın başı Moskva da öz qlobal şovinist maraqları üçün milli münaqişələrin alovlandırılmasına xüsusi maraq göstərirdi. Məqsəd imperiyadan ayrılmaq istəyən xalqları özündən asılı saxlamaq, onların müstəqil inkişaflarına əngəl törətmək, regionda öz hegemonluğunu və maraqlarını qorumaqda davam etmək idi. Bu maraq hələ də davam edir və belə görünür ki, edəcəkdir. Çünki, Rusiya sabiq SSRİ məkanında bir çox problemlərin, o cümlədən, Azərbaycanın Ermənistan tərəfindən işğal olunmuş Qarabağ və ona bitişik 7 rayonunun azad edilməsi və ərazi bütövlüyünün təmin edilməsi uğrundakı mübarizəsinə qarşı məhz milli ədavət kartından istifadə edir. Əslində, "Parçala və hökm sür!" və "Parçala və qalib gəl!" şüarları tarixən hər zaman öz aktuallığını qoruyub saxlamış və bu gün də saxlamaqdadır. Əlbəttə, bu, başqa bir söhbətin mövzusudur. Biz, sadəcə olaraq bu yazımıza giriş olaraq və məlumat üçün bunları yazırıq. Ancaq həm Rusiya, həm də ATƏT-in Minsk qrupunun həmsədrləri və təbii ki, onların təmsil etdikləri dövlətlər unudurlar ki, Azərbaycan xalqı (türkü) Koroğlunun törəmələridir. Koroğlunun igidlərinə (əsgərlərinə) isə yaxşı mənada "dəli" deyiblər. Bir gün bu xalq və Azərbaycan dövlətinin, dünyanın 50 ən güclü ordusundan biri olan silahlı qüvvələri hərəkətə keçəcək və təkcə dığalara deyil, Azərbaycanın ərazi bütövlüyünün təmin olunmasına mane olan cəmi zalimlərə gərəkən dərsi verəcəkdir (aprel döyüşlərində olduğu kimi!).

SSRİ sürətlə dağılarkən Moskva hətta əliyalın xalqı (xalqları) gülləbaran etmək yolu ilə də olsa, xalqların milli-azadlıq mübarizəsinin qarşısını almağa çalışırdı. Bu çərçivədə 1990-cı ilin yanvar ayının 19-dan 20-nə keçən gecə təpədən-dırnağa silahlanmış və əksəriyyəti ittifaqın müxtəlif yerlərindən, xüsusən, Şimali Qafqazdan səfərbər olunmuş milliyyətcə ermənilərdən ibarət sovet (rus) qoşunu Bakıya yeridildi, qarşıya çıxan hər kəsə və hər şeyə atəş edildi. Bakıda və Azərbaycanın rayonlarında 146 nəfər öldürüldü, 744 nəfər yaralandı, 841 nəfər qanunsuz həbs olundu. Deyirlər, təsir əks-təsirə bərabərdir. Görünür, bəzən əks təsir təsirdən də güclü olur. 20 yanvar qırğınında Azərbaycan xalqı fiziki, maddi və mənəvi itkilər versə də, bu hadisədən qalib çıxdı. Çünki hələ də mərkəzi hökumətdən müsbət mənada nəsə gözləyənlər və umanlar belə, bu faciədən sonra qəflət yuxusundan ayıldılar və milli-azadlıq hərəkatı kütləviləşdi. Artıq hər kəs başa düşdü ki, istər müstəqil dövlətin yaradılması, istərsə də, Qarabağ məsələsinin çözülməsi və ərazi bütövlüyümüzün qorunması məhz özümüzün həll edəcəyi bir məsələdir.

Bakıdakı yanvar qırğınından 1 gün əvvəl, yəni 1990-cı il yanvarın 18-dən 19-a keçən gecə ermənilər, SSRİ Müdafiə Nazirliyinin Ermənistanda yerləşən 7-ci ordusunun köməyi ilə böyük bir qüvvə ilə Naxçıvan Muxtar Respublikasının sərhəd kəndi Kərkiyə hücum etdilər. Qeyri-bərabər döyüşdə ən primitiv silahlarla silahlanmış yerli özünü müdafiəçilər düşmənə böyük itkilər versələr də, geri çəkilməli oldular və Kərki kəndi işğal olundu və 30 ildən artıqdır ki, davam edir.

Naxçıvanın mərkəzi meydanında keçirilən ümumxalq mitinqinin tələbinə uyğun olaraq, 19 yanvarda Naxçıvan Muxtar Sovet Sosialist Respublikası Ali Sovetinin qərarı ilə muxtar respublikanın ərazi bütövlüyü və vətəndaşlarının həyatı təhlükə qarşısında qaldığından, Qars müqaviləsinin şərtləri kobud surətdə pozulduğundan Maxçıvan MSSR, SSRİ-nin tərkibindən çıxaraq, özünü müstəqil respublika elan etdi. O vaxtkı dövr üçün bu, inqilabi bir addım idi.

Məlumat üçün deyək ki, istər çar, istərsə də, sovet Rusiyasının apardıqları məkrli antitürk, antimüsəlman siyasətlərinin nəticəsi olaraq, 1920-ci ildə Azərbaycanın əzəli və əbədi torpaqları olan Dərələyiz və Zəngəzur regionları Ermənistana verilərək Naxçıvan Muxtar Respublikası Azərbaycan torpaqlarından aralı düşmüşdür. İttifaqın dağılması prosesinin başlanması ilə blokadaya düşmüş Naxçıvanda qısa müddətdə Ermənistan üzərindən gələn qaz və elektrik kəsildi, ərzaq qıtlığı

yarandı. Təsəvvür edin ki, qışın ortasında qaz yox, işıq yox, istilik yox, su yox, çörək yox! Hətta o zaman hardasa kimlərinsə acından öldüyü şayiələri dolaşmağa başladı. 1990-cı il yanvarın 20-dən Naxçıvanda da fövqəladə vəziyyət elan olundu və ordu şəhərə girdi.

Yanvar ayının 21-də, Moskvada yaşayan Heydər Əliyev Azərbaycanın buradakı Daimi Nümayəndəliyinə gələrək kütləvi bəyanat verdi və Moskvanın Azərbaycan xalqına qarşı kütləvi qırğınına öz etirazını bütün dünyaya bildirdi. İyulun 20-də Heydər Əliyev təyyarə ilə Bakıya uçdu, lakin o vaxtkı antimilli hakimiyyətə görə iyulun 22-də Naxçıvana gəldi. Hər şeydə bir hikmət var, deyərlər. Heydər Əliyevin Naxçıvana gəlişi bu diyarı erməni işğalından və soyqırımından, ən yaxşı halda isə 370 minlik əhalini acından və soyuqdan ölməkdən xilas etdi. Tezliklə Naxçıvan Ali Məclisinin sədri seçilən bu böyük şəxsiyyət qazandığı unikal həyat və iş təcrübəsini işə salaraq doğulub boya-başa çatdığı məmləkətini təsəvvür belə olunmayacaq hər cür real faciələrdən xilas etdi. Məhz Heydər Əliyevin uzaqgörən siyasəti zamanla öz bəhrəsini verdi, İran və Türkiyədən yardımlar, ən əsası isə elektrik gəlməyə başladı. Ərzaq talonu ilə əhalinin qida ehtiyacları, qismən də olsa, təmin olundu, fasilələrlə elektrik verilməyə başladı.

Heydər Əliyevin əvvəl Naxçıvanı, daha sonra isə Azərbaycanı hər cür bəlalardan xilas etməsi bir daha onu göstərdi ki, tarixdə şəxsiyyətin rolu nə dərəcədə önəmlidir. Günümüzdə bir neçə ölkələr var ki, onilliklər boyu müharibənin, aclıq və səfalətin, saysız-hesabsız maddi, mənəvi və fiziki xəsarətlərin girovunda, ən pisi isə yadelli əsgərlərin tapdağı altındadırlar. Yəqin ki, o xalqların da bağrından Heydər Əliyev kimi bir fenomen şəxsiyyət yetişsəydi, onlar bu vəziyyətə düşməzdilər (Pənahoğlu, 2017).

Ermənistan 1992-ci il mayın 8-də Şuşanı işğal edən zaman paralel olaraq Naxçıvanın Sədərək bölgəsinə də hücum etdi. O zaman ulu öndər Heydər Əliyev Türkiyədən yardım istədi və prezident Süleyman Dəmirəl Moskva (1921, 16 mart) və Qars (1921, 13 oktyabr) müqavilələrini nəzərə alaraq, bu hərəkətin cavabının çox ağır olacağını bəyan etdi. Türkiyənin Ermənistanla sərhədindəki hərbi hissələr döyüşə hazır vəziyyətə gətirildi. Həmin vaxt, əvvəlcədən ov tüfəngləri belə yığılmış və əliyalın erməni hücumu qarşısında qalmış Naxçıvan əhalisi bir-birinə göz aydınlığı verirdi ki, türkün topu İrəvana tuşlanmışdır. Bununla da, Qars müqaviləsi Naxçıvanın Ermənistanın hücumlarından qorunmasında son dərəcəli mühüm rol oynadı (2).

Türkiyə Cümhuriyyətinin bütövlükdə 31 quru gömrük qapısı vardır. Onlardan biri də Dilucu gömrük qapısıdır. Təbii ki, gömrük qapılarından hər birinin açılış, əhəmiyyət və fəaliyyət tarixi diqqətəlayiq bir mövzudur. Lakin Dilucu gömrük qapısının istər açılışı, istərsə də, onun iqtisadi-sosial, tarixi-diplomatik və hərbi-siyasi əhəmiyyəti müstəsna mahiyyət daşıyır.

Dilucu gömrük qapısı 20 may 1992-ci ildə o dönəmin Azərbaycan Respublikası prezidenti Heydər Əliyev və Türkiyə Respublikasının Baş naziri Süleyman Dəmirəl tərəfindən açılmışdır. Bu qapı Türkiyənin İqdir vilayəti ilə Azərbaycanın Naxçıvan Muxtar Respublikasının Sədərək rayonlarını birləşdirir. Əslində, o, 1991-ci ilin 20 oktyabrında müvəqqəti körpü kimi istifadəyə verilmiş və 18 noyabrda Türkiyənin Konya şəhərindən ərzaq dolu ilk maşın karvanı bu körpü ilə Naxçıvana humanitar yardım gətirmişdir.

Adətən, açılan hər bir yeni gömrük qapısı, rəsmən yerləşdiyi məkanın coğrafi adı ilə adlandırılır. Təbii ki, Dilucu gömrük qapısı da bu reallıqdan istisna təşkil etmədi. Ancaq xalq ona "Ümid Qapısı" adı verdi. Səbəb nə idi? Məsələ burasındadır ki, açılan "Dilucu" gömrük qapısı həmin dövrdə sözün həqiqi mənasında ölüm-qalım savaşı verən Naxçıvan üçün ifadənin geniş anlamında ümid qapısı idi. "Ümid Qapısı"nın əhəmiyyətini ayrı-ayrı başlıqlar altında ümumiləşdirməyə çalışaq:

1. İqtisadi-sosial əhəmiyyət. İttifaq dağılarkən, Azərbaycanla bütün nəqliyyat-kommunikasiyaları (qaz, işıq, su, rabitə və s.) və iqtisadi əlaqələri, xüsusən də, ərzaq təminatı tam kəsilmiş Naxçıvan, məhz "Ümid Qapısı" vasitəsi ilə qardaş Türkiyəyə çıxış əldə etdi və ehtiyacı olduğu iqtisadi-sosial ehtiyaclarını qarşılamağa başladı. Naxçıvan vətəndaşı Türkiyəyə vizasız giriş-çıxış imkanı qazandı. İnsanlar istehsal etdikləri məhsulları Türkiyəyə aparıb satmaqla ailələri üçün gəlir mənbəyi əldə etdilər. Bəziləri qonşu İqdir vilayətində işləməyə başladılar. Ən əsası isə bu gömrük qapısı Bakı-Naxçıvan-Türkiyə birbaşa iqtisadi əlaqələrinin inkişafı üçün əlverişli nəqliyyat

sistemi yaratdı (Bərxudarlı, 2015: 76; Talıbov, 2008: 840). Türk firmaları və şirkətləri Naxçıvana ayaq açdı. Ən əsası isə insanlar arxasız olmadıqlarını, türk xalqı kimi bir xalqın, Türkiyə kimi qüdrətli bir dövlətin həmişə olduğu kimi, yenə də qardaş kimi onların arxasında durduqlarını dərk etdilər. Məhz "Ümid Qapısı"nın yaratdığı imkanlar sayəsində bu gün artıq Naxçıvan elektrik idxal edən ölkədən onu ixrac edən məntəqəyə çevrilmişdir. Naxçıvandan Türkiyəyə ildə 120 milyon dollarlıq ixrac həyata keçirilir.

2. Tarixi-diplomatik əhəmiyyət: "Ümid Qapısı" tarixən bir olmuş Osmanlı türkləri ilə Azərbaycan türklərinin yeni şəraitdə birliyi, qaybayıb-qovuşması üçün əsaslı şərait yaratdı. Azərbaycan XX əsrdə ikinci dəfə müstəqillik qazanandan sonra Türkiyə Respublikası ilə Azərbaycan Respubliksı arasında diplomatik münasibətlərlə bağlı müqavilə yanvar 1992-ci il tarixində imzalansa da, əslində, bu münasibətlərin təməli dünya tarixinin fenomen şəxsiyyətləri Heydər Əliyev və Süleyman Dəmirəlin çoxsaylı təmasları və qarşılıqlı əməli işbirliyi ilə daha əvvəllər qoyulmuşdu.

3. Hərbi-siyasi əhəmiyyət: "Ümid Qapısı"nın yerləşdiyi Naxçıvan bölgəsindəki Azərbaycan və Türkiyə arasındakı sərhəd xətti məsafəcə kiçik olsa da (cəmi 11 km), hərbi-siyasi mənada çox böyük əhəmiyyət daşıyır. Məlumat üçün deyək ki, Naxçıvan Ermənistanla 246 km, İranla 204 km həmsərhəddir (Talıbov, 2008: 5). Azərbaycanın müstəqilliyinin formalaşması, müstəqilliyinin bünövrəsinin qoyulması da məhz Naxçıvanda həyata keçirilmişdir. O vaxt, hələ Sovet İttifaqının zamanında Heydər Əliyevin fəaliyyəti nəticəsində Naxçıvanda görülən işlər bütövlükdə Azərbaycanın müstəqilliyi üçün çox böyük əhəmiyyət daşıyırdı. Məhz Heydər Əliyevin sədrliyi ilə keçən Naxçıvan Muxtar Sövet Sosialist Respublikasının Ali Sovetinin birinci sessiyası diyarın adından "Sovet Sosialist" sözlərini çıxardı, ali dövlət hakimiyyət orqanının adında dəyişiklik etdi, MR-in dövlət bayrağı və digər rəmzləri haqqında qərarlar qəbul elədi, Azərbaycanın üç rəngli milli bayrağı böyük fasilədən sonra hələ Sovet İttifaqı zamanında ilk dəfə olaraq məhz Naxçıvanda ucaldıldı və dövlət rəmzlərinin qəbul edilməsi haqqında Azərbaycan parlamenti qarşısında qanunvericilik təşəbbüsü qaydasında məsələ qaldırdı. Bu qapı Naxçıvanın yeni şəraitdə hərbi qüdrətinin artmasına və burada Azərbaycanın ən güclü hərbi birləşmələrindən birinin formalaşdırılmasına imkan verdi. O, Türkiyənin türk respublikaları ilə coğrafi birliyini də əlaqələndirən çox rəmzi bir keçiddir. Heç təsadüfi deyil ki, türkdilli ölkələrin dövlət başçılarının IX zirvə görüşü məhz 2009-cu il 03 oktyabrda qədim Naxçıvan şəhərində keçirildi. Xatırladaq ki, ilk zirvə görüşü 1992-ci ildə Ankarada, sonrakı toplantılar 1994-cü ildə İstanbulda, 1995-ci ildə Bişkekdə, 1996-cı ildə Daşkənddə, 1998-ci ildə Astanada, 2000-ci ildə Bakıda, 2001-ci ildə İstanbulda və 2006-cı ildə Antalyada keçirilmişdir. Belə bir sammitin Naxçıvanda keçirilməsi həm də Naxçıvanın beynəlxalq sənədlərlə, yəni Moskva və Qars müqavilələri ilə təsbit olunmuş statusunun möhkəmləndirilməsinə xidmət edirdi (Qurbanov, 2011: 202). Naxçıvan görüşü türkdilli dövlətlərin inteqrasiyasında tamam yeni bir mərhələ oldu. Məhz bu görüşdə Türkdilli Ölkələrin Əməkdaşlıq Şurası yaradıldı və Naxçıvan Bəyannaməsi qəbul edildi. Naxçıvan Bəyannaməsi ilə türkdilli ölkələrin dövlət başçılarının zirvə görüşlərini təşkilatlandırmaq sahəsində çox qiymətli və tarixi bir addım atıldı. Bütün bunlar məhz "Ümid Qapısı"nın sayəsində Naxçıvanın həm də sözün həqiqi mənasında siyasi bir mərkəzə çevrildiyini əyani şəkildə ortaya qoyur.

Yeri gəlmişkən, qeyd edək ki, Macarıstan da Türkdilli Ölkələrin Əməkdaşlıq Şurasının üzvüdür və onun bütün aidiyyatı qurumlarının işində iştirak edir. Macarıstan prezidenti Viktor Orba, türk dövlət başçılarının Qırğızıstanda keçirilmiş toplantısındakı (2019) tarixi çıxışında demişdir: "Biz qıpçaq Türküyük və Atillanın nəvələriyik" (6).

Artıq 2008-ci ildən Macarıstanda Macar-Turan Fondunun təşkilatçılığı ilə 2 ildən bir "Türk özünüdərk qurultayı", başqa deyişlə "Turan Xalqlarının Qurultayları" keçirilir. Onun internet saytı da fəaliyyət göstərir: (7). İlk belə qurultay isə Qazaxıstanda yaşayan madarların təşəbbüsü ilə bu ölkədə keçirilmişdir. Macar-Turan Fondu, 2012-ci ildə Qazaxıstanda, Macarıstanda hazırlanmış "Həyat ağacı" adlı əzəmətli bir abidə ucaltmışdır. Bütöv ağacdan hazırlanmış abidənin ağırlığı 2 ton, hündürlüyü 9 metrdir. O, macarların əcdadları madarların türk xalqları ilə eyni kökdən olmasının simvoludur. Turan sözünün iki mənası var: I mənada o, tarixən qeyri-ərəblərin yaşadığı

ərazi mənasını vermişdir. II və əsl mənasında isə o, türklərin, daha dəqiq desək, türkdilli xalqların əraziləri anlamını ifadə edir.

Bir çox Avropa dillərində Macarıstanın adı Hunqary kimi gedir, yəni Hunların ölkəsi. Əlbəttə, bu tarixi Hun imperiyası və on-oqur/on-oquz (on oğuz tayfası) ilə birbaşa bağlıdır. Göründüyü kimi, bir çox Avropa xalqları macarların şəxsində Atillanın törəmələrini görmüşlər (8). Macarlar hətta türk runi əlifbasını da dirçəltməyə başlamışlar. Belə ki, onlar Bibliyanı bu əlifba ilə çap etmiş, yaşayış məskənlərinin girişlərinə onların adlarının türkcə yazıldığı lövhələr asmışlar. Bu proses Qərbi Ukraynada (Zakarpatiya) da getməkdədir (9).

Məlumat üçün xatırladaq ki, Türkiyənin Ermənistanla olan Akyaka (Kars), Alican (İqdir) quru yolu gömrük qapıları Ermənistan ordusunun 1993-cü il 3 apreldə Azərbaycanın Kəlbəcər rayonunu işğal etdiyi vaxtdan bağlıdır. Belə ki, 1993-cü il mart ayının 23-dən aprel ayının 3-dək 10 sutkadan çox gedən gərgin döyüşlərdə 701 saylı hərbi hissə, Kəlbəcər könüllüləri və helikopterçilər özlərindən 15 qat üstün olan düşmən qüvvələri ilə mühasirə şəraitində vuruşaraq 450 nəfərdən çox itki vermiş və mühasirədə olan 60 min kəlbəcərlinin təxliyyəsinə nail olmuşdu.

Kəlbəcərin işğalından sonra 3205 saylı iclasda BMT Təhlükəsizlik Şurası 822 saylı Qətnamə qəbul edib. Qətnamədə bütün işğalçı qüvvələrin Kəlbəcər və Azərbaycanın digər işğal olunmuş rayonlarından dərhal çıxarılması tələb olunur. BMT Təhlükəsizlik Şurasının eyni məzmunlu daha 3 (29 iyul 1993-cü il tarixli 853 saylı Qətnamə; 14 oktyabr 1993-cü il tarixli 874 saylı Qətnamə; 11 noyabr 1993-cü il tarixli 884 saylı Qətnamə) Qətnamə qəbul etməsinə baxmayaraq, Ermənistan ordusu öz təcavüzlərini davam etdirdi və hazırda 27 ildir ki, Dağlıq Qarabağdan əlavə daha 7 rayon işğal altındadır və indiyədək işğalçı Ermənistan tərəfindən həmin qətnamələrdən irəli gələn hər hansı öhdəlik yerinə yetirilməyib. Xalq arasında müdrik bir deyim var: "Donuz öz xoşuyla darıdan çıxmaz."

Yenə də məlumat üçün deyək ki, 1918-ci il mayın 28-də türk-müsəlman dünyasında, ümumiyyətlə, bütün Şərqdə ilk demokratik-parlamentli respublika məhz Azərbaycanda yaradılmışdı. O, tarixi və cahanşümul bir fəaliyyət göstərsə də, cəmi 23 ay yaşaya bildi və sovet Rusiyasınn işğalı ilə süquta uğradıldı. Ancaq Azərbaycan xalqı azadlıqsevər bir xalq olduğu üçün XX əsrdə II dəfə (18 oktyabr 1991-ci ildə) öz dövlət müstəqilliyinə qovuşdu. Maraqlı faktdır ki, istər Azərbaycan Cümhuriyyəti, istərsə də Azərbaycan Respublikası yarananda onları rəsmən ilk tanıyan məhz Türkiyə Respublikası Dövləti olmuşdur. Bu, heç də təsadüfi deyildir, çünki Azərbaycan xalqı (türkü) ümumtürk etnosunun bir parçasıdır. Yeri gəlmişkən, bir neçə cümlə türk etnosu barədə. Türk xalqları Altay dil qrupuna məxsusdular. Dünyada 24 türkdilli xalq, başqa sözlə desək, 86 etnos və subetnos vardır. Onlar, dil və mənşə fərqinə görə dörd qola bölünürlər:

1. Oğuzlar-Anadolu türkləri, Azərbaycan türkləri, qaqauzlar, türkmənlər, Axısqa türkləri, Krım tatarları, türkmanlar, Xorasan türkləri və s.;
2. Uyğurlar-özbəklər, həzaralar, salarlar, uyğurlar, tuvalar, şorlar, komasin-tobollar, baraba tatarları, çulumlar və s.;
3. Qıpçaqlar-qazaxlar, qaraqalpaqlar, qumıqlar, qırğızlar, altaylar, noqaylar və s.;
4. Bulqarlar-tatarlar, başqırdlar, qaraçaylılar, qaraimlər və s.

Müasir türk xalqlarının dinləri fərqlidir. Böyük bir hissə İslam dininə etiqad edərkən, çuvaş, qaqauz, tatar və yakutların böyük bir hissəsi pravoslav xristian, karaim və krımçaklar iudizm, tuvin, sarı uyqurlar və salarların bir hissəsi buddist, altaylar burhanist, xakas, şor, teleut, yakut və dolqanlar tenrist və şamanist dininə inanır (10).

Türk etnosu dünyanın ən çoxsaylı etnoslarından biridir və onun təmsilçiləri Yer kürəsinin bütün qitələrində məskunlaşmışlar. Bəzi saytlarda onların sayı haqqında verilən məlumatlar həqiqəti əks etdirmir. Bu məlumatlara görə, dünya türklərinin sayı 160-165, 170, ya 250 milyondur. Halbuki təkcə Türkiyədə 55, Çində 100, İranda 40, Özbəkistanda 30, Qazaxıstanda 15, Azərbaycanda 10, Türkmənistan və Qırğızıstanın hər birində 6 milyon və s. türk vardır. Sabiq SSRİ, dünyanın quru hissəsinin altıda birini (22402 min km^2) tuturdu. O, əhalisinin sayına görə (1989, 1 yanvar-293 milyon) dünyada III yerdə dururdu. Çoxları bilməsə də, bu nəhəng ölkənin əhalisinin təqribən 75 %-ni, yəni, 200 milyondan çoxunu türkdilli xalqlar təşkil edirdi. Başqa bir fakt: bu gün ərazi

baxımdan dünyanın ən böyük ölkəsi olan Rusiya Federasiyası 17075,4 min km^2 ərazisi ilə Yer kürəsinin quru sahəsinin 11,5 %-ni tutur, 146 milyonluq əhalisi ilə dunya dövlətləri arasında 9-cu yerdə dayanır. Yenə də rəsmi statistikada bu ölkənin əhalisinin 81 %-nin rus olduğu bildirilir (11). Halbuki, ən primitiv göstəricilərə (məsələn, ölkənin tarixi, tarixi coğrafiyası, türk xalqlarının yayılma arealı, bu ərazidən çıxmış böyük şəxsiyyətlərin milli mənsubiyyəti, ölkənin inzibati-ərazi bölgüsü və s.) baxsaq, görərik ki, ölkənin əhalisinin çoxunu türkdilli xalqlar, xüsusən də, tatarlar təşkil edir. Başqa bir fakt isə ondan ibarətdir ki, Rusiya Federasiyasında 60 fərqli etnik qrup var, 100-dən çox dildə danışılır. Hə, bu etniklərin ən böyüyü türk etnosudur və danışılan dillərin əksəriyyəti türk (axısqa, Altay, Azərbaycan, balkar, barsi, başqırd, buryat, bulqar, çukot, çulum, çuvaş, dolqan, evenk, xakas, xantı-mansı, İdil tatarları, kalmık, kara tatar, Krım tatarları, koryak, kumık, qacar, qaqauz, qaraçay, qarapapaq, qaşqay, qazax, qəraim, qırqız, nen, noqay (naqaybak), oryat, özbək, sarı uyqur, salar, savir, Sibir tatarları, tabasaran, tatar, taymır, teleut, telenqit, tərəkəmə, truxmen, türkmən, urum-qıpçaq, yakut, yamala və s.) dilləridir. Bundan başqa, Rusiya Federasiyası 89 subyekdən ibarətdir: 21 respublika, 1 muxtar vilayət, 9 diyar, 10 milli mahal, 46 vilayət, 2 federal əhəmiyyətli şəhərlər (Moskva və Sankt-Peterburq) daxildir (Qurbanov, 2011: 216). Digər subyektlər nəzərə alınmasa belə, adıgedən 21 respublikanın çoxusu türk xalqlarına məxsusdur. Nəticə etibarı ilə, təqribi hesablamlara görə, dünya əhalisinin hardasa, az qala, 500 milyon nəfəri türkdillidir. Əslində, günümüzdə Türk dilinin rəsmən beynəlxalq dil elan olunması türkdilli xalqların ən elementar hüququdur.

Tarixən rus şovinistləri hər zaman başqa xalqları assimilyasiya etməyə, xalqların (millətlərin) milli mənsubiyyətlərini, xüsusən dillərini əllərindən almağa çalışmışlar. Günümüzdə Rusiya Federasiyasında yaşayan bir çox türkdilli xalqların (şorlar-12 mindən artıq; tofalar-toxalar-qaraqaşlar-761 nəfər; çulumlar-355 nəfər, tubalar, kumandilər-2900 nəfər, telenqitlər-3800 nəfər, teleutlar-bayat-payatlar-2650 nəfər, dolqanlar-7261 nəfər, çelkanlar-1700, krımçaqlar-1500, soyotlar-500 və s.) sayları kifayət qədər azalmış və nə yazıq ki, azalmaqda davam edir: onlar ölüm-qalım savaşı verməkdədirlər. Bu xalqlar yüz illər əvvəl necəydilərsə, indi də elədirlər: maral saxlayır, balıq tutur, ovçuluqla məşğuldurlar. Dini inancları da totemizm, şamanizmdir. Onların əksəriyyətinin məskunlaşdıqları yaşayış məntəqələrinə yol belə yoxdur. Bu yerlərə ancaq vertolyotla ulaşmaq mümkündür. Maraqlı burasıdır ki, haqqında söhbət gedən türkdilli xalqların nümayəndələri ana dillərində aramla danışanda oradakı azərbaycanlılar onları anlayır. Bu xalqlar, əsasən, Bratsk şəhərindən 700 km şərqdə, Tayqanın dərinliklərindəki Anqoya qəsəbəsi regionunda yaşayırlar. Maraqlıdır ki, Anqoya qəsəbəsində XX əsrin 70-ci illərində BAM-ı (Baykal-Amur Magistralı) tikən azərbaycanlılar yaşayır. Mərhum prezident Heydər Əliyev də keçmiş SSRİ Nazirlər Soveti sədrinin 1-ci müavini işləyərkən məhz buralara gəlib çıxmış, tikintiyə şəxsən nəzarət etmişdi (13).

Hazırda türk xalqlarının 7 müstəqil dövləti vardır (Türkiyə, Azərbaycan, Qazaxıstan, Özbəkistan, Türkmənistan, Qırğızıstan və Şimali Kipr). Müstəqil türk dövlətlərindən başqa, Rusiya Federasiyasının tərkibində Tatarıstan, Başqırdıstan, Çuvaşıstan, Saxa (Yakutiya), Tuva, Xakasiya, Kabarda-Balkariya, Qaraçay-Çərkəs, Altay Respublikaları, Taymır (Dolqan-Nen) və s. milli mahalları və daha kiçik türkdilli subyektlər, eləcə də, Çin Xalq Respublikasının tərkibində isə Sinsyan-Uyqur Muxtar Rayonu vardır (12).

Əslində, Rusiya Federasiyasının respublika səviyyəli subyektləri, həm də onların başında duran şəxsiyyətlərin xarakterinə görə, Tatarıstan və Başqırdıstan Respublikalarının timsalında elə müstəqil dövlət kimidirlər. Məsələn, 2010-cu ildə Çeçenistan Respublikasının prezidenti Ramazan Kadırov belə bir fikir irəli sürdü ki, Rusiya Federasiyasında bir prezident ola bilər, o üzdən ölkənin subyektləri olan respublikaların rəhbərlərinə dövlət başkanı (prezident) deyilməməlidir. Bu təklifdən sonra ölkənin o vaxtkı prezidenti Dmitri Medvedev, Dövlət Duması və Federasiya Məclisi onu təsbit edən qərarlar çıxardılar. Lakin ölkənin ən böyük subyektlərindən olan Tatarıstan Respublikası və Başkırdıstan Respublikası bu qərarları tanımadılar və öz qanunvericiliklərinə müvafiq dəyişikliklər edərək öz respublikaları daxilində prezident statuslarını saxladılar. Beləliklə, federasiya qanunları ilə adıgedən respublikaların bu sahədəki qanunvericilikləri arasında ziddiyyət

yarandı (13). Başqa bir misal, rus təyyarəsinin Türkiyə tərəfindən vurulması ilə az qala Türkiyə-Rusiya müharibəsi alovlanacaqdı. Həmin gərgin dövrdə 1991-2010-cu illərdə Tatarıstan Respublikasının Prezidenti olmuş Mintimer Şeymiyevin belə bir fikri qeyri-rəsmi şəkildə yayıldı ki, əgər Rusiya Türkiyə ilə müharibə etsə, biz türklərin tərəfində vuruşacağıq. Əlbəttə, od olmayan yerdən tüstü çıxmaz.

Qeyd etmək yerinə düşər ki, Türkiyə-Rusiya münasibətlərinin az qala müharibə həddinə çatacağı bir vaxtda məhz Azərbaycan Respublikasının prezidenti cənab İlham Əliyevin şəxsi vasitəçiliyi ilə bu gərginlik aradan qalxdı və Türkiyə-Rusiya böhranı çözüldü (14).

Yeri gəlmişkən, daha 1 haşiyə çıxaq; bu gün bir çox rus şovinistləri SSRİ-nin yaradıcısı Vladimir İliç Leninlə (1870-1924) bağlı xoşagəlməz yazılar dərc edir, onu rus imperiyasının düşməni adlandırırlar. Səbəb olaraq göstərirlər ki, o, əslən tatar olaraq türk millətçiliyi etmiş, ölkənin inzbati ərazi bölgüsünü tərtib edərkən, türkdilli xalqlara müxtəlif inzibati-ərazi statusları vermişdir ki, gələcəkdə milli varlıqlarını qoruya, inkişaf etdirə və müstəqil dövlətlər ola bilsinlər. Əslində, bu fikirdə həqiqət payı kifayət qədər yüksəkdir. SSRİ-nin dağılması bunu əyani şəkildə göstərdi. Nəzərə alsaq ki, SSRİ-ni dağıtmış güclərin növbəti planı Rusiya Federasiyasını bir super dövlət kimi sıradan çıxartmaqdır, o zaman bir çox yeni müstəqil türk dövlətlərinin yaranacağı və XXI əsrin türk əsri olacağı heç bir şübhə doğurmur (15).

Azərbaycanın regional iqtisadi əməkdaşlığa verdiyi böyük əhəmiyyət və trans-regional infrastruktur layihələrində fəal iştirakının nəticəsi olaraq, Azərbaycan ilə Türkiyə arasında beynəlxalq əhəmiyyətli bir sıra regional layihələr uğurla həyata keçirilmişdir. Bakı-Tbilisi-Ceyhan neft kəməri (BTC), Bakı-Tbilisi-Ərzurum qaz kəməri (BTƏ), Bakı-Tbilisi-Qars dəmir yolu xətti (BTQ), Trans-Anadolu təbii qaz boru xətti (TANAP) layihələri bu baxımdan ən yaxşı nümunələrdir.

Nəticə

"Ümid Qapısı"-nın iqtisadi-sosial, tarixi-diplomatik və hərbi-siyasi əhəmiyyəti" mövzusunun bir məqalə həcmində və çərçivəsində araşdırılması belə, onun nə qədər aktual olduğunu göstərir. Biz türk xalqları olaraq hər zaman şanlı tariximizin səhifələrini bir daha vərəqləməli və ibrət dərsləri almalıyıq. Çünki, Dağıstanın müdrik xalq şairi Rəsul Həmzətovun (1923-2003) dediyi kimi, keçmişimizə tapança ilə atəş açsaq, gələcək bizi topla qarşılayar (Həmzətov, 1977: 301). Bu baxımdan mövzunun digər aspektləri də nəzərı alınmaqla geniş bir şəkildə, həm də dövlət müstəqilliyimizin bəxş etdiyi münbit imkanlar çərçivəsində öyrənilməsi zəruridir.

Təkliflər. Mövcud araşdırmanın doğurduğu təkliflər:

1. Mövzunun çox geniş və hərtərəfli araşdırılmasına ehtiyac vardır;
2. Türk etnosu ensiklopediyasının hazırlanması elmimiz qarşısında duran təxirəsalınmaz vəzifələrdən biridir.

Ədəbiyyat

1. Pənahoğlu, Ş. (2017). Əfqanıstan: Sovet işğalından Amerika müdaxiləsinə. 525-ci qəzet. 03 iyun.
2. https://nuhcixan.az/news/siyaset/20964
3. Bərxudarlı, A. (2015) Azərbaycan-Türkiyə ticarət-iqtisadi əlaqələrinin müasir vəziyyəti və inkişaf yolları. Magistr dissertasiyası. Bakı: İqtisad Universiteti, 76 s.
4. Talıbov, V. (2008). Qayıdış (1990-1993). Bakı: Azərbaycan, 840 s.
5. Qurbanov, R. (2011). Türk xalqlarının tarixi. II hissə. Bakı: İqtisad Universiteti, 216 s.
6. www.kurultaj.hu
7. https://az.wikipedia.org/wiki/Rusiya-81%
8. www.turkist.org
9. http://yvision.kz/post/280028
10. https://ru.wikipedia.org/wiki/%D0%
11. http://qlobal.az/biz-qipcaq-turkuyuk
12. https://az.wikipedia.org/wiki/Rusiyan%C4%B1n_inzibati

13. https://az.wikipedia.org/wiki/T%C3%BCrk_xalqlar%C4%B-7
14. https://lent.az/news/272578
15. https://tr.wikipedia.org/wiki/Tataristan_cumhurb
16. Həmzətov, R. (1977). Mənim Dağıstanım. II cild. Bakı: Gənclik, 301 s.

Göndərildi: 13.02.2023 Qəbul edildi: 25.05.2023